

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 50-51 (7287-7288) ❁ **Bazar ertəsi, 20 iyul 2015-ci il** ❁ **Qəzet ayda 4 dəfə çıxır** ❁ **Qiyməti 40 qəpik**


## *Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası*





İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlət başçısı iclası giriş nitqi ilə açaraq qeyd edib ki, bu gün ənənəvi olaraq ilin altı ayının yekunları müzakirə olunacaq. Cənab Prezident çıxışında ilk növbədə diqqətə çatdırdı ki, ilin ilk altı ayının yekunları çox müsbətdir, Azərbaycan uğurla inkişaf edir və bu müddət ərzində əldə edilən uğurlar tarixi uğurlardır. Çünki dünyanın müxtəlif yerlərində çox xoşagəlməz proseslər davam etməkdədir. Yaxın Şərqdə vəziyyət həddindən artıq gərginləşib, Avropa dərin böhran içindədir.

Çıxış yolu isə hələ tapılmayıb. Mənəvi böhranın təzahürləri isə bizi çox narahat edir. Cənab Prezident qeyd etdi ki, mənəvi böhran, iqtisadi böhran bu gün artıq Avropada reallıqlardır. Bu isə bizi düşünməyə vadar edir və bu məsələni gələcək fəaliyyətimizdə mütləq nəzərə almalıyıq. İndi Azərbaycanın Avropaya nə dərəcədə inteqrasiya etməsi məsələsi qarşıda durur. Cənab Prezident çıxışında bu qənaətə gəldi ki, gələcək aylarda yeni əməkdaşlıq mexanizmi, formatı və konsepsiyası hazırlanmalıdır. Çünki Azərbaycan öz fəaliyyətində bütün beynəlxalq təşkilatlarla bərabərhüquqlu münasibətlər qurur və biz fəaliyyətimizi bu prinsip üzərində davam etdiririk.

Ümumiyyətlə, cənab Prezident çıxışında həm Yaxın Şərqdə, həm Avropada, MDB məkanında yaşanan böhranlı vəziyyətə geniş və hərtərəfli nəzər saldı. Eyni zamanda Ukraynada, Ermənistanda, Yunanıstanda davam edən böhranlı vəziyyəti təhlil etdi, reallıqları iclas iştirakçılarının diqqətinə çatdırdı.

Cənab Prezident dedi: "Mən bəzi hallarda dövlət məmurlarından, deputatlardan, ictimai xadimlərdən eşidirəm ki, biz Avropaya inteqrasiya etməliyik. Siz bunu deyəndə bir düşünün. Birincisi, Prezidentin mövqeyini bilməlisiniz. İkincisi, siz necə inteqrasiya edəcəksiniz? Hansı formada inteqrasiya edəcəksiniz? Bu inteqrasiya sizə lazımdırmı, yoxsa yox? Hansı simada Azərbaycanı orada qəbul etmək istəyirlər? İkinci dərəcəli üzv kimi, assosiativ üzv kimi yaxud da kənardan yapışan bir ölkə kimi". Cənab Prezident qeyd edir ki, bu format bizə lazım deyil. Avropa şurasının Azərbaycana qarşı qərəzli çıxışlarını təhlil edən Prezident vurğuladı ki, bu açıq-aydın anti-Azərbaycan mövqeyidir. Ona görə də biz heç yerə üzv olmuruq. İndiyə qədər hara olmuşuqsa kifayətdir. Lazım gələrsə yenə də başqa birliklərə də üzv olarıq, ancaq bərabərhüquqlu tərəfdaş kimi, layiqli ölkə kimi.

Lakin cənab Prezident qeyd etdi ki, bütün bunlara baxmayaraq ölkədə əldə edilən uğurlar doğrudan da tarixi xarakter daşıyır. Baxmayaraq ki, neftin qiyməti aşağı səviyyədədir Azərbaycan iqtisadiyyatı inkişaf edir. Altı ay ərzində ölkə iqtisadiyyatı 5,7 faiz artmışdır. Qeyri-neft sektorunda göstərici daha yüksək olmaqla 9,2 faizdir. Sənaye istehsalı təxminən 4 faiz artmışdır. Qeyri-neft sənayesində atrım isə 14 faizdən çoxdur. Bu da son illərdə sənayeləşmə, yeni sənaye zonalarının yaradılması ilə bağlı görülmüş işlərin, tədbirlərin nəticəsidir.

Ölkədə infilyasiyanın səviyyəsi 3,5 faizdir. Bu da çox yaxşı göstəricidir. Əhalinin pul gəlirləri isə ənənəvi olaraq infilyasiyanı üstələmiş və 6,2 faiz artmışdır. Kənd təsərrüfatında isə artım 7,3 faizə çatmışdır.

İqtisadi göstəricilərdən danışan Prezident qeyd etmişdir ki, 6 ay ərzində ölkəyə 12,7 milyard manat sərmayə qoyulmuşdur. Bu da çox yüksək göstəricidir. Son illərdə daxili investisiya üstünlük təşkil edirdisə ilin ötən ayında xarici sərmayə üstünlük təşkil edir. Bu da onu göstərir ki, Azərbaycan investisiyalar üçün daha cəlbedici ölkədir və xarici sərmayə burada lazimi səviyyədə qorunur.

İlin birinci yarısında 60 minə yaxın iş yeri açılmışdır ki, statistika yeni iş yerlərinin açılması ilə yanaşı bağlanan iş yerlərini də göstərməlidir. Başqa sözlə desək, açılan iş yerləri ilə yanaşı bağlanan iş yerləri də göstərilməlidir ki, təhlil düzgün aparılsın. Burada əsas balans məsələsidir.

12 il ərzində ümumiyyətlə, Azərbaycanda 1 milyon 400 min iş yeri açılmışdır. Onlardan da 1 milyonu daimi iş yeridir. Nəticədə işsizlik keçən ilin səviyyəsində, yəni 5 faizdə qalmışdır.

Bütün nüfuzlu beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsulluqla bağlı mübarizəni çox yüksək qiymətləndirirlər.

Ölkə Prezidenti çıxışında sosial sahədə də bütün proqramların icra edildiyini söyləmişdir. Ölkə üzrə ilin büdcəsi qəbul edilərkən neftin qiyməti 90 dollardan hesablanmışdır. Əslində indi 60 dollardır, bir qədər əvvəl isə 50 dollar idi. Lakin buna baxmayaraq bütün sosial proqramlar vaxtında icra edilmişdir. Bu da ölkə Prezidentinin siyasətinin çevik əlamətidir. Çünki bu siyasətin əsasında Azərbaycan vətəndaşı dayanır. Odur ki, cənab Prezident çıxışında demişdir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə biz yeni təşəbbüslər haqqında fikirləşirik".

Möhtərəm Prezident ünvanlı sosial yardım proqramının icrası zamanı həyata keçirilən tədbirlərdən, uğurlardan və yeni sosial infrastrukturun yaradılması barədə də çıxışında ətraflı təhlilə yer vermişdir. İndi ölkədə 112 min ailə, 490 min insan sosial yardım alır. Orta hesabla hər nəfərə ayda 150 manat pul verilir. Məktəblər, xəstəxanalar tikilir. İndi təxminən 20-dən çox məktəb 30-dan çox tibb müəssisəsi təmir olunur, tikilir. Bu sahədə əsaslı dönüş yaradılmışdır. Qarşıya məqsəd qoyulmuşdur ki, növbəti illərdə bir dənə də təmirsiz məktəb olmasın və hər bir yerdə, hər bir kənddə insanlar normal tibbi xidmətə malik olsunlar.

**(Ardı 2-ci səhifədə).**